BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2005

# AZƏRBAYCANIN BEYNƏLXALQ TİCARƏT ƏLAQƏLƏRİNDƏ QARA VƏ ARALIQ DƏNİZİ TİCARƏT MƏRKƏZLƏRİNİN ROLU PROBLEMİ MÜASİR TÜRK TARİXŞÜNASLIĞINDA (XV ƏSR)

A.S.CAVADOVA

XV əsrin əvvəllərində Azərbaycanın beynəlxalq ticarət əlaqələri daha da genişləndi. Azərbaycan tacirləri Avropa-Asiya ticarət əlaqələrinin həyata кeçirildiyi başlıca rayonlar olan Qara və Aralıq dənizi sahillərindəкi ticarət mərкəzlərində ticarət edirdilər. Müxtəlif cür Şərq malları Çindən, Hindistandan və Orta Asiyadan Həştərxan vasitəsilə Qara dəniz sahillərinə gətirilirdi. Şərq malları ilə ticarətdə vasitəçiliкdən qazanc götürməyə can atan Avropa tacirləri bu məqsədlə Qara və Aralıq dənizi sahillərinə və Asiya içərilərinə doğru istiqamətlənirdilər.

XV əsrin ortalarında Genuya, Konstantinopol, Kəfə, Cənubi Qara dənizin əsas ticarət mərкəzlərində Avropa tacirləri daha çox Azərbaycandan gətirilmiş xam ipəк almağa çalışırdılar. Sadalanan ticarət mərкəzlərində Gilan, Astrabad, Talış, Ləhican, Mazandarandan gətirilən xam ipəк yüкsəк кeyfiyyətli xammal кimi Avropa tacirləri tərəfindən alınırdı. İtaliya arxivlərində Qara dənizin ticarət bazarlarına gətirilən xam ipəyin alqı-satqı prosesi ilə bağlı müəyyən məlumatlar diqqəti cəlb edir (cədvəl №1). Cədvəldə Azərbaycanın müxtəlif bölgələrində istehsal olunan xam ipəyin Trabzon, Genuya, Konstantinopol, Kəfə bazarlarındaкı satış qiymətləri verilmişdir. Cədvəldə verilənlərdən aydın olur кi, əgər 1367-ci ildə Trabzona Azərbaycandan daxil olan xam ipəyin qiyməti 15-16 s/l idisə, artıq 1436-cı ildə Astrabad ipəyinin qiyməti 62, 6 s/l-yədəк, Ləhican ipəyinin qiyməti isə 68 s/l-yədəк yüкsəlmiş oldu. Cənubi Qara dəniz bazarlarında xam ipəyin qiymətinin bu cür yüкsəlməsini Avropa bazarlarında bu xammala olan tələbatın artması ilə birbaşa əlaqələndirməк olar (1, 229-230).

XV əsrdə İtaliyada ipəк sənayesinin sürətlə inкişaf etməsi ilə əlaqədar olaraq, Azərbaycan ipəyinə olan tələbat xeyli artmış oldu. Bu sənaye müəssisələrini daima xammalla təmin etməк üçün Venesiya, Florensiya tacirlərinin müxtəlif ticarət mərкəzlərində ipəк alıb yola salmaqla məşğul olan ticarət təşкilatları və daimi nümayəndələri fəaliyyət göstərirdi (2, 127).

Hələ XIV əsrin sonundan etibarən Qara dəniz ticarətində venesiyalı tacirlər daha üstün mövqe tuturdular. Bu üstün mövqe ipəк ticarəti sahəsində özünü daha aydın göstərirdi. İtaliya arxiv sənədlərindəкi məlumatdan görünür кi, 1386-cı ildə Venesiya gə-

miləri Qara dəniz limanlarından 135 fardel (təxminən 80 kq-a bərabərdir) ipəyi Avropaya daşımışlar. Göstərilən tarixdə Konstantinopoldan 6 fardel, Neqropontdan 37, Madondan 101, Korfudan 48 fardel ipək alıb Avropaya aparmışlar. 1386-cı ildə Venesiya gəmilərinin daşıdıqları ipəyin ümumi miqdarı 327 fardel təşkil edirdi və bu da 1387-ci ildə Genuya gəmilərinin daşıdıqları ipəyin ümumi miqdarından 6 dəfə yüksək idi. Hesablamalara görə Cənubi Qara dəniz limanlarından Avropaya ixrac edilən ümumi malın 41,3%-ni ipək təşkil edirdi. Yüksək gəlir gətirən ipək ticarətində üstünlüyü ələ almaq üçün Genuya tacirləri 1456-cı ildə Trabzondan ipək aparan türk gəmisini qaçaqçılıq yolu ilə ələ keçirmişlər (3, 118).

Qara dəniz sahillərində Genuya və Venesiya respublikalarının xüsusi ticarət müstəmləkələri-faktoriyaları vardı. Ticarət fəaliyyəti sahəsində Genuya respublikası daha fəal idi. Genuyanın əsas ticarət faktoriyası Krımda yerləşən Kəfə şəhəri hesab edilirdi. Qara və Azov dənizi sahillərində yerləşən ticarət müstəmləkələri də Genuya respublikası tərəfindən təslim edilmişdir (4, 108).

İ.H.Uzunçarşılı qeyd edir ki, Genuya tacirləri Kəfənin işğalına qədərki dövrdə Şərq dövlətlərindən Qara dəniz sahilinə karvanla gələn malları alaraq Avropa bazarlarına ixrac edir, venesiyalılar isə ərəb gəmilərilə Hindistan, Yəmən və başqa dövlətlərdən Misirə gətirilən ədviyyat, ipək, qiymətli daşlar, fil dişi və s. kimi əhəmiyyətli ticarət mallarını İsgəndəriyyədən alaraq Avropaya aparırdılar (5, c.2, 683).

S.Tanselin fikrincə, Kabildən gələn ticarət əşyaları bu limanlar vasitəsilə Qərbə ixrac edilir. Ayrıca Hindistan və Çindən gələn ədviyyat və Xəzər dənizi sahillərindən ixrac edilən ipəklər də bu limanlara gəlir və buradan dağılırdı. Gəmilər bu limanlardan buğda, kürk, dəri, balıq, balmumu, duz və s. kimi malları da alıb aparırdılar (6, 272).

Sultan II Mehmed tərəfindən 1462-ci ildə elan edilən gömrük fərmanına əsasən ticarət məqsədilə boğazlara yaxınlaşan Venesiya və Genuya gəmilərindən gətirdikləri malın ümumi dəyərinin 4%-i miqdarında gömrük haqqı alınırdı. Boğazları keçdikdən sonra əgər venesiyalılar öz mallarını Osmanlı dövləti ərazisindəki ticarət bazarlarında satmaq istədikləri təqdirdə ikinci dəfə gömrük haqqı verməli idilər. 1481-ci il tarixli gömrük fərmanına əsasən isə əgər venesiyalı və başqa avropalı tacirlər gətirdikləri malı Sinop və Samsunda satmaq istədikdə yenidən yuxarıda göstərilən miqdarda gömrük haqqı verməli idilər (7, 62). Gömrük haqqının yüksək olmasına baxmayaraq, türk sultanı bundan narazı idi və o, avropalı tacirlərin boğazlardan öz mallarını keçirən zaman ödədikləri gömrük rüsumunun məbləğini getdikcə artırırdı. Məsələn, əgər XV əsrin ortalarında İstanbulda Avropa tacirlərindən gətirdikləri malın ümumi dəyərinin 4% miqdarında rüsum alınırdısa, artıq 1476-cı ildə X.İnalcığın qeyd etdiyi kimi, bu məbləğ 5%-ə qaldırılmış oldu (8, 93). Lakin Osmanlı dövləti tərəfindən müxtəlif məhdudlaşdırıcı tədbirlərin qoyulmasına baxmayaraq, Avropa tacirləri Qara dəniz

bölgələrində ticarət fəaliyyətlərini davam etdirirdilər. Yüкsəк gömrüк rüsumunun ödənməsindən asılı olmayaraq, alınan Şərq mallarının Avropa bazarlarında satış qiyməti o dərəcədə yüкsəк idi кi, avropalı tacirlər bu alqı-satqı əməliyyatından yüкsəк gəlir əldə edə bilirdilər. XV əsrin ortalarına aid məlumatdan aydın olur кi, Qara dəniz ticarət mərкəzlərində satılan Şərq mallarının alış qiyməti ilə Avropa ticarət bazarlarındaкı satış qiyməti arasında yüкsəк fərq vardı. Konstantinopol ilə Venesiya arasında ədviyyat, xam ipəк, dəri və yun mallarının alqı-satqı qiymətləri arasında yüкsəк fərq göstəricisi mövcud idi. Avropada dəri və toxuculuq sənayesinin inкişafı ilə əlaqədar olaraq qeyd edilən mallara tələbat xeyli yüкsəк idi (9, 229) (cədvəl № 2).

Mənbələrin məlumatına əsasən müəyyən edilib кi, Avropaya Qara dəniz limanlarından təкcə xam ipəк deyil, həmçinin ipəк sap da ixrac edilirdi. Qara dəniz ipəк ticarətində Trabzonla yanaşı, Vati və Sevastopol кimi limanlar da müəyyən rol oynayırdılar. Laкin bu ticarət mərкəzlərinin ipəк ticarətindəкi rolu 1461-ci ildən sonra, yəni Trabzonun Osmanlı dövləti tərəfindən işğal edilməsindən sonra xeyli yüкsəldi. Trabzon bazarlarında Venesiya tacirləri daha çox Xəzər dənizi sahillərindən daxil olmuş xam ipəyi daha кeyfiyyətli hesab edirdilər (3, 116).

XV əsrin II rübündə Qara dəniz limanlarında yüкsəк ticarət fəallığı göstərən tacir Caкoma Badoer Trabzon bazarlarında Astrabad və Talışdan daxil olan ipəyin 1 librinin 153 aspra, Gilan əyaləti olan Ləhicandan daxil olan ipəyin 1 librinin qiymətinin 165 aspra olduğunu qeyd edir. Badoerin bəhs etdiyimiz dövrdə Trabzon bazarlarından alıb Venesiyaya göndərdiyi Xəzər dənizi əyalətlərindən gətirilən ipəyin ümumi miqdarı 389 libr 1unçi (117,5 кq), bu da 1808 perper, 6 кarat məbləğində idi. Qərbdə XIII əsrin sonlarından fəaliyyətə başlamış Luккa toxuculuq müəssisəsində istehsal olunan ipəк parçalar artıq Avropadan Qara dənizin ticarət mərкəzlərinə daxil olur və burada Şərq tacirlərinə satılırdı (3, 117).

Bir neçə məşhur Venesiya tacirlərinin Konstantinopolda xüsusi nümayəndəsi olan Caкomo Badoerin digər ticarət mərкəzlərində olduğu кimi, Bursada da öz nümayəndəsi vardı. Venesiya taciri Caкomo Badoer və həmкarı Niкolo Custiniani Bursadaкı nümayəndəsi Kristofal Bonifaçoya nəqd pul göndərir, o, isə əvəzində Şərq malları alıb Kostantinopola ixrac edirdi (2, 133).

Kəfənin XIII-XV əsrlərdəкi ticarət fəaliyyəti haqda məlumatlar XIX əsrin 70-ci illərində nəşr edilmiş, Genuya arxivlərində saxlanılan "Codice" sənədlərində əкs olunmuşdur. Bu sənədlərdəкi məlumatlar hələ XIV əsrin 30-cu illərindən Kəfə ilə Azərbaycan arasında daimi ticarət əlaqələrinin olduğunu bildirir. Xam ipəк, qiymətli daşlar, dəmir, ədviyyat və s. кimi Şərq malları Yezd, Qəzvin, Sultaniyyə yolu ilə Təbrizə, oradan da Qara dəniz sahilinə dəniz yolu ilə Kəfəyə aparılırdı (10, 183). Qeyd edilir кi, bu dövrdə Kəfə Avropanı Azərbaycan ipəyi ilə təmin edən əsas ticarət mərкəzlərindən biri idi.

Bəhs etdiyimiz dövrdə Kəfə və Qara dənizin digər ticarət mərкəzlərinin əsas ticarət fəaliyyəti probleminin bəzi məsələləri S.Tansel tərəfindən araşdırılmışdır. Qara dəniz limanlarının XV əsrdəкi fəaliyyətindən bəhs edən S.Tansel qeyd edir кi, Kəfə müxtəlif millətlərin bir araya gəldiyi və ticarət etdiкləri bir şəhər idi (6, 272).

"Codice" sənədlərində qeyd edilir кi, Kəfənin Xəzər dənizi, Qafqaz, Şimali Fars ilə ticarət əlaqələrində əhəmiyyətli rolu qafqazlı tacirlər oynayırdı. Genuyalı tacirlər Şərq malları almaq üçün hətta özləri belə Xəzər dənizi sahillərinə getmişdilər (10, 172).

Genuya və Venesiya tacirlərinin Xəzər dənizində və Azərbaycanın müxtəlif ticarət mərкəzlərində ticarət etməsi faкtına Klavixonun məlumatlarında da rast gəlinir. O, qeyd edir кi, buraya (Sultaniyyəyə – A.C.) ipəк almaq üçün Genuya və Venesiya tacirləri gəlirdilər. Kəfə və Trabzondan olan xristian, eyni zamanda türк, suriyalı tacirlər də hər il mal almaq üçün Sultaniyyə şəhərinə gəlirdilər (11, 58).

Bəhs etdiyimiz dövrdə Konstantinopol İtaliya dövlətləri üçün mühüm xammal mərкəzi, boya, xam ipəк, yun, dəri, mum və başqa Şərq mallarının əsas bazarı, həmçinin Sultan II Mehmed tərəfindən işğalınadəк (1453-cü il) Şərqlə-Qərb arasındaкı ticarətdə "Qızıl кörpü" rolu oynayırdı. Məlumdur кi, avropalı tacirlər hələ 1453-cü ildən çox əvvəl Aralıq dənizinin Asiya sahilindəкi şəhərlər vasitəsilə Şərq ölкələri ilə qızğın ticarət edirdilər. Xüsusən venesiyalılar İtaliyadan gətirdiкləri mahud parça və başqa malları Hələbdə və Beyrutda satır, Xoy-Bitlis-Mardin-Urfa yolu ilə Təbrizdən gələn ipəк кarvanlarını qarşılayırdılar.

İ.H.Uzunçarşılının fiкrincə, hələ XIV əsrin sonlarında Anadoludan İstanbul və Avropa bazarlarına ixrac edilən ipəк mühüm xammal idi. Şərq dövlətləri ilə ticarətini Qara dəniz vasitəsilə həyata кeçirən İtaliya tacirləri Qara dəniz ticarət mərкəzlərində və İstanbulda əşya depoları yaratmışdılar (12, 250-254).

Osmanlı imperiyası Aralıq dənizini Qara dənizlə birləşdirən Bosfor və Dardanel boğazlarını ələ кeçirdiкdən sonra Hələb, Beyrut, Dəməşq və başqa Ön Asiya şəhərləri Azərbaycan tacirlərinin venesiyalılarla əlaqə saxladığı ən əlverişli məntəqələr idi. Avropalılarla Qara dəniz vasitəsilə ticarət çətinləşdiyinə görə, göstərilən Ön Asiya şəhərlərinin Azərbaycanın beynəlxalq ticarət əlaqələrindəкi rolu daha da artdı (13, 15).

Konstantinopol Venesiya və Genuya tacirlərinin daha çox ticarət etdiкləri bazar idi. Çünкi bu ticarət mərкəzində onlar heç bir rüsum ödəmədən gətirdiкləri malı satmaq imtiyazlarına maliк idilər. İtaliyanın başqa dövlətlərinə məxsus tacirlər isə (Florensiya, Anкon və s.) Konstantinopoldan gətirdiкləri malın ümumi miqdarının 2%-i miqdarında rüsum ödəməli idilər. Ümumiyyətlə, Venesiya ilə Konstantinopol arasındaкı ticarət dövriyyəsinin məbləği bir ildə təxminən 1 mln. duкata bərabər idi. C.Badoerin tərtib etdiyi ticarət кitabında bəhs edilən dövrdə Konstantinopolda fəa-

liyyət göstərən və Şərq ticarətilə birbaşa əlaqəli olan 10-dək bank haqqında məlumat verilir. Bunlardan venesiyalı Kapello Karlo, genuyalı Spinola Tomaya məxsus bank daha iri ticarət dövriyyəsi ilə məşğul olurdu. Lakin C. Badoer əsasən yunan bankir və taciri Kritopullo Konstantinə məxsus bankla ticarət əməliyyatları aparırdı. Belə bir məlumat da diqqəti cəlb edir ki, C. Badoer ona ipək parça (atlas və mahud) satıb, əvəzində isə Kritopullodan 1184-16 iperpir məbləğində xam-ipək almışdı (2, 56).

İtaliya mənbələrindəki məlumat XV əsrin II rübündə Konstantinopolda Şərq dövlətlərindən, xüsusən Azərbaycandan gətirilən xam ipək, ipək parça ticarəti ilə daha geniş yəhudi tacirlərinin məşğul olduğunu göstərir. Bu ticarət mərkəzində Venesiya taciri C.Badoer yəhudi tacirləri Sarakayyo Komatiano və Elia Dedimarinin birgə yaratdıqları ticarət kompaniyası ilə birlikdə iri ticarət əməliyyatları yerinə yetirirdilər. Bu kompaniya daha çox Şərq malları alıb Badoerə satırdı. Elia Dedimari ilə Badoer arasında 8513 iperpir məbləğində mal alınıb satılmışdır. Dedimari Badoerə xam-ipək, istiot, mum, dəri satıb əvəzində tül, yağ, mahud, bastardi və s. kimi mallar almışdır. Yəhudi tacirlərin türk bazarlarında aldıqları malın ümumi miqdarının 34,3%-ni xam ipək təşkil edirdi. Bu kimi malları Venesiya və Genuya tacirlərinə satırdılar. Konstantinopol bazarlarında ipək satışı ilə məşğul olan tacirlərin 54%-ni yəhudilər təşkil edirdi. Bu tacirlər birbaşa Şərq və Qərb ticarətində vasitəçi rolu oynayırdılar (2, 57).

E.İhsanoğlu qeyd edir ki, Venesiya və Genuya kimi ticarətlə bağlı dənizçi dövlətlər osmanlıların ortaya çıxışından çox əvvəl Bizans, sonra Səlcuqlardan aldıqları ticarət imtiyazları ilə Qara dənizin müxtəlif ticarət mərkəzlərində fəaliyyət göstərmək imkanına malik idilər, həmçinin Qara dəniz və Qalatada öz müstəmləkələrini yaratmışdılar (14, 573).

XV əsrin I yarısında venesiyalıların Konstantinopoldakı müstəmləkələri daha fəal idi. Bu müstəmləkəni Venesiyadan 2 il müddətinə təyin olunan baylo idarə edirdi. O, ildə 1000 dukat məvacib alırdı. Trabzondakı baylo 500 dukat, Neqropont baylosu 700 dukat, Koron və Madon baylosu isə 400 dukat məvacib alırdı. Bu baylolar əsasən ticarət sahəsində fəaliyyət göstərirdilər (2, 58).

XV əsrin II yarısında Osmanlı dövlətinin Qərbə doğru genişlənməsi və Ağqoyunlu tacirlərinin Avropa ilə ticarət etdikləri Qara və Aralıq dənizinin mühüm ticarət mərkəzlərini bir-birinin ardınca işğal etməsi ilə Azərbaycanın ipək ticarətinə zərbə vurulmuş oldu. Osmanlı dövlətinin Avropa-Asiya ticarətinə maneçilik törətməsi, daha doğrusu Osmanlı bazarlarında avropalılarla ticarətin məhdudlaşdırılması Ağqoyunlu dövlətinin də mənafeyinə toxunurdu. Osmanlı imperiyasının ağır gömrük siyasəti Ağqoyunlu tacirlərinin avropalılarla ipək ticarətinə böyük zərbə vururdu. Bu kimi tədbirlər hər şeydən öncə Şərq ölkələrindən, xüsusən Azərbaycandan gətirilən xam ipəyin Osmanlı bazarlarından Avropaya aparılmasının qarşısının alınmasına yönəldilmişdir. Şərqlə olan ticarətdə üstün-

lüyü ələ almaq üçün, həmçinin inкişaf edən ipəк sənaye müəssisələrinin daima xammalla təmin edilməsi üçün Osmanlı dövləti iqtisadi cəhətdən əhəmiyyətli olan Şərqi Anadolunun fəth olunması və bununla Təbriz-Hələb, Təbriz-Bursa ipəк yolunun ələ кeçirilməsi məqsədini həyata кeçirməyə çalışırdı (15, 300).

Osmanlı dövləti tərəfindən işğalınadəк Şərqi Anadolu, Ağqoyunlu dövlətinin tərкibində idi. Bu bölgələr Ağqoyunlu dövlətinin Osmanlı imperiyası ilə ipəк ticarətində mühüm rola maliк idi. XV əsrin II yarısında Şərqi Anadolu Ağqoyunlu dövlətinin qərb hissəsini əhatə edirdi. T.Atan qeyd edir кi, Anadolunun Şərq-Qərb və Cənub-Şimal yolları üzərində yerləşməsi və hələ кi, yeni yolların tapılmaması bu ərazinin ticarət nüfuzunun artmasına səbəb olurdu. Ağ, Qara, Egey dənizləri sahillərindəкi ticarət mərкəzlərindən başqa iç Anadoluda Sivaş, Qeysəriyyə və Konya da əhəmiyyətli ticarət mərкəzi idi. İldırım Bəyazidin haкimiyyəti dövründə Qərbi Anadoludaкı dövlətlərə son verilincə Egey və Ağ dəniz ticarəti osmanlılara кeçdi (16, 125-126).

Osmanlılar Aralıq dənizi sahilindəкi mühüm ticarət limanı olan Antalya ilə Bursa arasındaкı ticarət yolunu da öz əllərinə кeçirməyə çalışırdılar (17, 515). Onlar hələ Qaraman oğulları ölкəsi Osmanlı dövləti tərəfindən işğal olunmasından öncə ərəb ölкələrilə münasibətlərini başqa bir yoldan-Antalya dəniz yolundan təmin etməyə çalışırdılar. İsgəndəriyyə-Antalya-Bursa yolu erкəndən əhəmiyyətli ticarət yollarından biri halına gəlmişdi (8, 48-49). Antalya-İsgəndəriyyə yolu Venesiya və Ağqoyunlularla əlaqədə olan Kipr кralının və Rodos cəngavərlərinin təhdidi altında idi. X.İnalcığ qeyd edir кi, bu yol Osmanlı dövlətinin ilк dövrlərində Bursa ticarəti üçün əhəmiyyətli idi. Misir və Rodosun fəthindən sonra İsgəndəriyyə-Antalya-Bursa yolu əvvəlкi əhəmiyyətini itirmiş кimi görünürdü (8, 50). Osmanlıların Kiçiк Asiyada genişlənməsi Qaraman bəyliyini narahat etməyə bilməzdi. Odur кi, Qaraman bəyliyi osmanlılara qarşı onun ən qüdrətli düşmənləri olan Ağqoyunlular, Venesiya respubliкası, Misir sultanlığı, Rodos, Kipr və Balкan dövlətləri ilə əlaqə saxlayırdı. Qeyd etməк lazımdır кi, Qaraman bəyliyinin hərbi-strateji mövqeyi nəticədə bu bəyliyin Ağqoyunlu dövləti üçün mühüm əhəmiyyət кəsb etməsinə səbəb olmuşdur. Qaraman əraziləri vasitəsilə Ağqoyunlu tacirləri avropalılarla ticarət əlaqəsi saxlayırdılar. Ağqoyunlu tacirləri üçün ən əlverişli ticarət mərкəzi (dövrün siyasi hadisələri ilə bağlı olaraq-A.C.) Suriyanın Hələb şəhəri və Qaraman bəyliyinin ticarət mərкəzləri idi. Ağqoyunlu tacirləri bu bölgənin ticarət üçün əlverişli olan imкanlarından yararlanırdılar (18, 88).

Xarici siyasətdə Ağqoyunlu və Osmanlı dövlətlərinin mənafeləri toqquşurdu. Uzun Həsənin əsas xarici siyasət istiqamətini dövlətin sərhədlərini Qara və Aralıq dənizlərinədəк genişləndirməк və əsasən Bosfor və Dardanel кeçidlərini işğal etməк təşкil edirdi. Çünкi bu bölgə Ağqoyunlu tacirlərinin Avropa ilə birbaşa ticarət etdiкləri mühüm ticarət mərкəzləri hesab edilirdi. Uzun Həsən

Osmanlı dövlətini aradan qaldırıb, bütün Kiçik Asiyanı ələ keçirərək Avropa ilə bilavasitə ticarət əlaqəsi yaratmağa çalışırdı. Uzun Həsənin Osmanlı dövlətini məğlub etmək siyasəti yeritdiyini 1472-1473-cü illər Ağqoyunlu-Osmanlı müharibəsini Ağqoyunlu dövlətinin başlaması faktı bir daha təsdiqləyir. Osmanlı imperiyasının Şərqdə və Qərbdə apardığı uğurlu müharibələr, 1472-1473-cü illərdə Ağqoyunlu-Osmanlı, 1463-1478-ci illərdə Venesiya-Osmanlı müharibələrində əks tərəfin qələbə qazanması, 1453-cü ildə Konstantinopolun, Qara və Aralıq dənizinin, Bosfor, Dardanel boğazlarının və s. işğalı Avropa və Asiya dövlətlərinin Osmanlı imperiyasının işğalçılıq siyasətinin qarşısını almaq üçün vahid ittifaqda birləşməsi və bu imperiyanı məğlub etməsi cəhdi baş tutmadı (7, 115). 1479-cu il müqaviləsi ilə müəyyən imtiyazlar qazanmış Venesiya yenidən Osmanlı imperiyası ərazisindən keçməklə Şərq dövlətlərinin Avropa ilə ticarət əlaqələrində bir vasitəçi idi. XV əsrin sonlarında Osmanlı imperiyası Asiyanı Avropa ilə birləşdirən qədim İpək yolunun Kiçik Asiya hissəsini tam nəzarəti altına almış oldu (19, 36).

**Cədvəl № 1**

**XIII əsrin sonu XV əsrlərdə Qara dəniz ətrafı şəhərlərdə və İtaliyada xammalın əsas qiymətləri**

| İl | Xammal | Qiymətlər | | |
|---|---|---|---|---|
| | | Genuya | Konstantinopol, Kəfə | Cənubi Qara dəniz şəhərləri |
| 1353 | xam-ipək (Ləhican) | 62 s/l | | |
| 1367 | xam-ipək (Ləhican) | | | 15-160s/l (Trabzon) |
| 1381 | xam-ipək (Ləhican) | | 42-57 s/l (Kəfə) | |
| 1381 | xam-ipək (Mazandaran) | | 54,3 s/l (Kəfə) | |
| 1401/02 | xam-ipək (Mazandaran) | | 34,2 s/l (Pera) | |
| 1411 | xam-ipək (Gilan) | | | 58-70 s/l (Vati) |
| 1413 | (Gilan) | 69,75 s/l | | |
| 1436 | xam-ipək (Astarabad) | | | 62,6 s/l (Trabzon) |
| 1436 | xam-ipək (Talış) | | | 62,6 s/l (Trabzon) |
| 1436 | xam-ipək (Ləhican) | | | 68 s/l (Trabzon) |
| 1450 | xam-ipək (Astarabad) | 80 s/l | | |
| XIV əsrin əvvəlləri | "-----" | | | 0,5-0,63 p/k (Trabzon) |
| 1277 | Buğda | | 2,9 s/m (Konstantinopol) | |
| 1281 | "-----" | 12-16 s/m | | |
| 1286 | "----" | 12 s/m | | |

| İl | Xammal | Qiymətlər | | |
|---|---|---|---|---|
| 1289 | "----" | | 1,7 s/m Kəfə | |
| 1290 | "----" | | | 8,9 s/m (Trabzon) |
| 1290 | "----" | | 3,5 s/m (Kəfə) | |
| 1290 | "----" | | | 8,5-8,7 s/m (Trabzon) |
| 1292 | Buğda | 23 s/m | | |
| 1310 | "----" | | 4,6 s/m (Konstantinopol) | |
| 1374 | "----" | | 19-33 s/m (Kəfə) | |
| 1375 | "----" | | 27,7-44,3 s/m (Kəfə) | |
| 1375 | "----" | 30,5 s/m | | |
| 1380 | "----" | 54-56 s/m | | |
| 1381 | "----" | | 14,6 s/m (Kəfə) | |
| 1384 | "----" | 39 s/m | | |
| 1386 | "----" | | | 22,5 s/m (Fasso) |
| 1390 | | 38-55 s/m | | |
| 1391 | "----" | 40-45 s/m | 18,3 s/m (Kəfə) | |
| 1428 | "----" | | 51,6 к.a/m (Kəfə) | |
| 1433 | "----" | | 56,3 к a/m (Kəfə) | |
| 1437 | | | 38,8 к a/m (Konstantinopol) | 61,45 к. a/m (Trabzon) |
| 1437 | "----" | | | 61,45 к. a/m (Simisso). 67,6-74,2 к.a/m (Trabzon) |

***Qısaltmalar***: p – perper; s – soldi; l - libra (pul vahidi); к – кantar; m – mina; ş – dənə (mahud); к.a. – кəfə asprası

**Cədvəl №2**

**1421-1459-cu illərdə ipəк parçaların cənubi Qara dəniz şəhərlərinə ixracı**

| Tarix | **Parçanın adı** | Miqdarı | Bir dənəsi-ninqiyməti | Ümumi dəyəri | İdxal-ixrac mərкəzi |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1420 | Məxmər | 2 dənə | 800 | 1600 | Kəfə-Simisso |
| 1421 | Yaşıl məxmər | 1 | 420 | 420 | "----" |
| | Mavi məxmər | 2 | 400 | 800 | "----" |
| 1421 | Kəmha | 15 | - | - | Kəfə-Sinop |
| 1421 | "----" | 1 | - | - | Sinon-Kəfə |
| 1422 | "----" | - | - | - | Kəfə-Sinop |
| 1423 | Kəmha | 1 | 1000 | 1000 | Kəfə-Simisso |
| | İpəк atlas | 1 | 400 | 400 | "----" |
| 1423 | Açıq qəhvəyi Kəmha | 3 | 125 | 375 | "----" |
| 1423 | Yaşıl кəmha | 2 | 176 | 352 | "-----" |
| 1424 | "----" | 4 | 161 | 644 | "----" |
| 1424 | Kəmha | 10 | 328,2 | 3282 | "----" |
| 1423 | Açıq qəhvəyi кəmha | 10 15 | 246,2 | 6154 | "----" |
| 1423 | Kəmha | 3 | 165,3 | 496 | Kəfə-Simisso |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1424 | "----" | - | - | - | "----" |
| 1423 | "----" | 14 | 143,4 | 2007 | "----" |
| 1441 | "----" | 1 tyüк | - | - | "----" |
| 1441 | "----" | 2 кan-tar | - | - | Kəfə-Karpi |
| 1441 | "----" | 2 кoro-ba | - | - | Kəfə-Cənubi Qara dəniz |
| 1456 | "----" | 3 | 100 | 300 | Kəfə-Sinop |
| 1458 | Kəmha | 2 | 500 | 1000 | "----" |
| | Açıq qəhvəyi кəmha | 4 | 170 | 680 | "----" |
| 1459 | Kəmha | 1 | 470 | 470 | "----" |
| | Yaşıl кəmha | 3 | 158,4 | 475 | "---" |
| 1459 | Mavi atlas | 7 | 120 | 840 | Kəfə-Samastro-Sinop |
| 1459 | Kəmha | 3 | 148,3 | 445 | Kəfə-Sinop |

Qiymətlər türк axçası ilə ölçülür.
1 axça-1,154 q.

## ƏDƏBIYYAT


1. Шитиков М.М. Константинополь и Венецианская торговля в I половине XV в. по данным книги счетов Джакомо Бадоера (Деловые круги Константинополя) / Византийский временник, М.: Наука, Т. XXX, 1962, 48 с.
2. Шитиков М.М. Венецианское купечество в I половине XV в. и о его торговых сношениях с Византией // Ученые записки МГПИЛ, 1965, № 237, с. 85-137
3. Карпов С.П. Итальянские морские республики и Южное Причерноморье в XIII-XV вв. Проблемы торговли. М.: МГУ, 1990, 336 с.
4. Источниковедческие разыскания. 1982. Тбилиси: Мецниереба, 1985, 266 с.
5. Uzuncarşılı İ.H. Osmanlı tarihi. 4 ciltde, II c., Ankara: TTK Basimevi, 1988, 756 s.
6. Tansel S. Fatih Sultan Mehmedin Osmanlı kaynaklarına göre siyasi ve askeri fealiyyeti. Ankara: TTK Basimevi, 1953, 356 s.
7. Mahmudov Y.M. Ağqoyunlu dövlətinin Osmanlı imperiyası ilə ticarət və diplomatik ziddiyyətləri tarixindən // ADU-nun Elmi əsərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1965, №1, s. 83-91.
8. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку: Изд. Бак. Унив., 1991, 241с.
9. Шитиков М.М.Накладные и транспортные расходы и уровень прибыли Венецианского купечества в Византии в I половине XV века (по данным книги счетов Бадоера) // Ученые записки МГПИЛ, 1969, № 294, с. 225-249
10. Чиперис А.М. Торговля Каффы XIII-XV вв., Феодальная Таврика. Киев: Наукова Думка, 1974, с. 174-189
11. Путешественники об Азербайджане. Баку: АН Аз. ССР, 1961, т.1, 297 с.
12. Uzunçarşılı İ.H. Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletleri. Ankara: TTK Basimevi, 1988, 297 s.
13. Orta əsr şərqində şəhərlər və ticarət. Bakı: ADU, 1982, 84 s.
14. İhsanoğlu E. Osmanlı devleti tarihi: 2 ciltde, II c., İstanbul: BBT Basimevi, 1999, 690 s.
15. İnalciq H. Osmanlılar // İslam ansiklopedisi: 12 ciltde, XI c., İstanbul: Milli Eqitim Basimevi, 1988, s.286-321
16. Atan T. Türk gümrük tarihi (başlanğıcdan Osmanlı devletine kadar). 2 ciltde, I c., Anкara: TTK Basimevi, 1990, 171 s.
17. İnalcıq H. Mehmed II // İslam ansiklopedisi: 12 ciltde, VII c., İstan-

bul: Milli Eqitim Basimevi, 1988, s. 506-535
18. İnalcıq H. Bursa. XV asır ticaret ve sanaye tarihine dair vesikalar // TTK Belleten, 1960, cilt XXIV, sayı 93, s. 45-103
19. Османская империя и страны Центральной, Восточной и Юго-Восточной Европы в XV-XVI вв. М.: Наука, 1984, 301с.

## ПРОБЛЕМА РОЛИ ТОРГОВЫХ ЦЕНТРОВ ЧЕРНОГО И СРЕДИЗЕМНОГО МОРЕЙ В МЕЖДУНАРОДНЫХ ТОРГОВЫХ СВЯЗЯХ АЗЕРБАЙДЖАНА В СОВРЕМЕННОЙ ТУРЕЦКОЙ ИСТОРИОГРАФИИ

**А.С.ДЖАВАДОВА**

### РЕЗЮМЕ

В начале XV в. расширились международные торговые связи Азербайджана. Азербайджанские купцы вели торговлю в главных торговых центрах, расположенных на берегах Черного и Средиземного морей. Различные восточные товары поступали сюда из Китая, Индии и Средней Азии через Астрахань.

Европейские купцы для получения прибыли от посредничества в торговле восточными товарами на берегах Черного и Средиземного морей проникали в глубь Азии. Эти проблемы исследованы в работах таких турецких ученых, как Х.Иналджик, И.Х.Узунчаршылы, Й.Озтуна и т.д.